МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ

АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

---

*На правах рукописи*

**Настаран Мирмухаммад Хассанли**

# ПСИХИЧЕСКОЕ РАЗВИТИЕ РЕБЁНКА В СЕМЬЕ

6107.01 - Общая психология

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени

доктора философии по психологии

**Баку – 2013**

AZƏRBAYCAN RESPUBLİKASININ

TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**NASTARAN HASSANLI MIRMOHAMMAD**

# AİLƏDƏ UŞAĞIN PSİXİ İNKİŞAFI

6107.01 - Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın müxbir üzvü, psixologiya üzrə elmlər doktoru, professor
**Bəxtiyar Həmzə oğlu Əliyev**

**Rəsmi opponentlər:** Psixologiya üzrə elmlər doktoru, professor
**Gülnarə Kazım qızı Qurbanova**
Psixologiya üzrə fəlsəfə doktoru
**Lamiyə Mehdi qızı Qurbanova**

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrası

Müdafiə "_29___" ___06________" 2013 –cü il saat "______"-da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" "_________" 2013- cü ildə göndərilib.

**FD. 02.014 Dissertasiya psixologiya üzrə fəlsəfə doktoru**

**şurasının elmi katibi Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 869; tiraj 100

“MBM” nəşriyyatının mətbəəsində

çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Məlumdur ki, XXI əsr uşaq əsri elan olunmuşdur. Demək olar ki, bütün dünyada, xüsusilə də ictimai-iqtisadi və siyasi inkişafda nailiyyətlərə malik olmaq istəyən ölkələr maddi və mənəvi kapitallarının böyük bir hissəsini uşaqların tərbiyəsi problemlərinə – onların psixoloji və fiziki baxımdan himayə olunmasına sərf edirlər. Bu ona görə edilir ki, uşaqlar bizim gələcəyimizdir. Gələcəyi bugünkü uşaqlarsız təsəvvür etmək qeyri-mümkündür. Uşaqların mənəvi və fiziki inkişafına nə qədər böyük vəsait sərf edilsə belə onların ailə münasibətləri və ailədə onların bir şəxsiyyət kimi formalaşması məsələləri tələb olunan səviyyədə həyata keçirilməzsə bütün bunların faydası bir o qədər də özünü göstərə bilməz.

Uşaq ailədə dünyaya göz açır və ailənin təsiri ilə formalaşır. Ailənin təsirinin neqativ və ya pozitiv olmasından asılı olaraq uşağın şəxsiyyət istiqamətləri formalaşır, intellektual və mənəvi inkişafının sərhədləri cızılır.

Ailə elə bir mühitdir ki, öz üzvlərinin bir-biri ilə rəftar və münasibətində fövqəladə rol oynayır. Ailədə mövcud şərait, yoxsulluq və sərvətə malik olma dərəcəsi, ailə üzvləri arasında əlaqələr, tərbiyənin vəziyyəti, qəbul olunmuş dəyərlər, əxlaqi, mənəvi şərait, iqtisadi vəziyyət, qarşılıqlı anlaşma, və s. uşaqların psixologiyasına hərtərəfli təsir göstərir.

Müasir dövrdə aparılmış tədqiqatlar göstərir ki, ailənin uşağın psixi inkişafına təsiri birmənalı deyildir. Bu amil hər bir ailənin özünəməxsus stereotip və yönəlişliklərə malik olmasından, müxtəlif milli-etnik zəmindən, eləcə də hər bir ailənin fərdi strukturundan, dünyaya baxış tərzindən və s. qaynaqlanır.

Faktlar göstərir ki, müasir dövrdə ailənin uşaqların psixi inkişafına göstərdiyi təsirin öyrənilməsi bir neçə aspektdən xüsusi aktuallıq kəsb edir.

Əvvəla, ailənin uşaqların psixi inkişafına təsiri məsələlərinin sistemli öyrənilməmişdir. Bu problemə həsr olunmuş tədqiqatların milli-etnik mühiti, zaman və məkan münasibətləri fərqlidir və bunun əsasında əldə olunmuş faktları mexaniki olaraq bütün milli-etnik şəraitə köçürmək olmaz.

İkincisi, müasir dünyada inteqrasiya meyllərinin güclənməsi,

mədəniyyətlərin bir-birinə təsiri, sosial-iqtisadi vəziyyətin dəyişməsi və s. kimi amillər ailə münasibətlərində neqativ yönümlü təzadlar yaradır ki, bu da uşaqların psixi inkişafına öz təsirini göstərməyə bilməz.

Üçüncüsü, ailənin uşağın psixi inkişafına təsiri olduqca mürəkkəb xarakter daşıyır və onun hər bir təsir elementinin öyrənilməsi uzun bir müddət tələb edir. Bu sahədə aparılmış hər bir tədqiqat ailə və uşaq münasibətlərinin vahid zəncirinin tamamlanmasına xidmət edir ki, bu baxımdan da bu problemin öyrənilməsi olduqca aktualdır. Bütün bunlar göstərir ki, ailənin uşağın psixi inkişafına təsirinin öyrənilməsi müasir dövr üçün olduqca aktualdır və uşağın şəxsiyyətinin formaşlaşdırılması baxımından ciddi əhəmiyyət kəsb edir. Qeyd olunanları nəzərə alıb problemin tədqiqini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi**. Problemlə bağlı aparılmış tədqiqatların təhlilindən belə qənaətə gəlmək olar ki, ailənin uşağın psixi inkişafına təsiri məsələləri fərqli aspektlərdən öyrənilmişdir. Bu sahədə pedaqoji tədqiqatlar daha çox üstünlük təşkil edir. Bu tədqiqatlarda göstərilir ki, ailədə həqiqi tərbiyənin əsasını ailə tərbiyəsi, daha sonrakı mərhələdə isə təlim fəaliyyəti təşkil edir.

Azərbaycan Respublikasında B.Əliyev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev Ə.Seyidov, C.Təhmasib, H.Əlizadə, M.Muxtarova, S.Quliyev, Q.Əzimli, L.Qasımova, A.Abbasov, S.Hacıyeva və başqaları ailədə uşağın psixi inkişafının müxtəlif məsələləri ilə bağlı sanballı tədqiqat işlərinin müəllifləridir.

Xarici ölkə psixologiyasında uşağın pixi inkişafında ailənin rolunun araşdırılmasna həsr olunmuş çoxsaylı tədqiqat işləri vardır. Bu baxımdan Z.Freyd, E.From, K.Xorni, V.Yustskiy, D.Mayers və başqalarının tədqiqatlarını xüsusi vurğulamaq olar.

İran İslam Respublikasında da bu sahədə bir sıra tədqiqatlar aparılmışdır. Xüsusilə də ailədaxili münasibətlərin uşaq şəxsiyyətinin inkişafına təsiri məsələləri L.Səfərli, P.Piran, B.Saruxani, M.Rəşidpur, M.Fərcad, A.Sousan və başqalarının əsərlərində öz əksini tapmışdır. Bütün istiqamətlərdə aparılmış tədqiqatlarda demək olar ki, problemin ayrı-ayrı aspektləri diqqət mərkəzinə gətirilmiş, ailənin uşağın psixi inkişafında müxtəlif amillər tədqiq edilmişdir. Lakin bununla belə bu sahədə hələ də sistemli tədqiqatların olduğunu söyləmək olmur. Bu da problemin

aktuallığından və sistemli tədqiq olunmadığından xəbər verir.

**Tədqiqatın obyektini** 6-8 yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın predmetini** ailənin uşaqların psixi inkişafına təsir dərəcəsi və ictimai mühitdə uşaqların adekvat özünə münasibətinin inkişaf etdirilməsinin psixoloji məsələlərinin tədqiqi təşkil edir.

**Tədqiqatın məqsədi.** Aparılmış tədqiqatın başlıca məqsədi ailədə uşağın psixi inkişafının psixoloji xüsusiyyətlərinin öyrənilməsinə dair təsəvvürləri tədqiqat obyektinə çevirmək, sağlam psixoloji iqlimi bərpa etməklə uşaqların psixoloji xüsusiyyətlərinin mexanizmlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Tədqiqatda belə bir fərziyyə əsas götürülür ki, uşaqların psixi inkişafının xüsusiyyətləri bir sıra amillərlə yanaşı, valideynlərin təhsil səviyyəsi, iqtisadi vəziyyəti, gəlir imkanları, intellektual göstəriciləri, eləcə də onların uşağın şəxsiyyətinin formalaşmasında istifadə etdikləri tərbiyə üsulunun xarakterindən də asılıdır.

Əsas fərziyyəyə uyğun olaraq bir neçə əlavə fərziyyə də götürülmüşdür:

-Uşağın pozitiv psixi inkişafı ailədaxili münasibətlərin düzgün qurulmasından, ailədaxili konfliktlərin xüsusiyyətlərindən və valideynlərin qarşılıqlı anlaşmasından asılıdır;

- Valideynlərin narkotik maddələrdən və alkoqoldan istifadəsi uşağın psixi inkişafının istiqamətlərini dəyişir və onların şəxsiyyət kimi formalaşmasına neqativ təsir göstərir.

**Tədqiqatın vəzifələri**. Qarşıya qoyulmuş məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

1. Problemlə bağlı mövcud ədəbiyyatın təhlilinə, mövzunun öyrənilməsinə həsr olunmuş istiqamətlərin müəyyən meyarları əsasında təsnif edilməsi, problemin nəzəri əsaslarının müəyyən edilməsi;

2. Ailə anlayışının psixoloji məzmununun müəyyən edilməsi və bu problemə həsr edilmiş tədqiqatların müəyyən meyarlar əsasında qruplaşdırılması;

3. Psixi inkişafın mahiyyətinin açıqlanması, uşağın psixi inkişafına təsir göstərən sosial-psixoloji amillərin aydınlaşdırılması;

4. Valideynin təhsil səviyyəsi, iqtisadi vəziyyəti və yaşı ilə uşaqların

psixoloji inkişafı arasında asılılığın müəyyənləşdirilməsi;

5. Uşağın psixi inkişafında mühüm əhəmiyyət kəsb edən amillərin ayırd edilməsi və onların pozitiv inkişafını təmin edəcək tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın elmi yeniliyi**. Əvvəlki tədqiqat işlərindən fərqli olaraq bu tədqiqat işində ailədə uşağın psixi inkişafının xüsusiyyətləri sistemli araşdırılmış, ailə tərbiyəsi və təlimin uşağın psixi inkişafında rolu müəyyənləşdirilmişdir. İlk dəfə olaraq bu işdə:

- Konkret milli-etnik zəmində uşaqların şəxsiyyət kimi formalaşmasında ailədaxili münasibətlərin, ailənin təhsil səviyyəsinin, eləcə də ailədə hökm sürən əxlaqi stereotiplərin və normaların uşağın psixi inkişafına təsir dərəcəsi ayırd edilmiş;
- Ailədə uşaqların tərbiyəsində buraxılan qüsurların onların gələcək inkişafında yaratdığı fəsadlar göstərilmiş, psixoloji aspektdə uşağın psixi inkişafının xüsusiyyətləri aydınlaşdırılmış;
- Ailədə uşağın psixi inkişafının xüsusiyyətlərinin öyrənilməsi zamanı valideynlərin onlarla ünsiyyətinin inkişaf etdirilməsi, tərbiyənin düzgün istiqamətə yönəldilməsi və bu sahədə mümkün vasitə və yollardan istifadə etməklə uşaqların rəftar və davranışında baş verən pozuntuların korreksiyası yolları göstərilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Ailədə uşağın müsbət yönümdə psixi inkişaf xüsusiyyətləri ailənin mövcud olduğu sosial şəraitin tələblərindən, ailə tipinin modelindən, sosial münasibətlərdəki dəyişikliklərdən, etnik-psixoloji xüsusiyyətlərdən, ailənin istifadə etdiyi tərbiyə üsulundan və ailədaxili münasibətlərin harmoniyası ilə şərtlənmişdir;
- Uşağın psixi inkişafında təlim-tərbiyə prosesinin adekvat təşkili ilə yanaşı, valideynlərin narkotik vasitələrdən və alkoqoldan istifadə etməməsi də mühüm rol oynayır;
- Ailənin psixi sağlamlığı və uşaqların psixoloji inkişaf xüsusiyyətləri, eləcə də intellekt əmsalı arasında olan müəyyən əlaqə vardır. Ailənin psixi sağlamlığı və uşağın intellektinin göstəricisi arasında əlaqə göstərir ki, ailədə psixi sağlamlıq artdıqca uşaqlarda intellekt əmsalının artması müşahidə olunur;
- Atanın və ananın təhsil səviyyəsi ilə uşağın davranış pozuntuları

arasındakı əlaqə göstərir ki, ibtidai təhsil səviyyəsinə malik olan ataların və anaların uşaqlarının davranış pozuntularının orta qiyməti başqa uşaqlara nisbətən daha çoxdur. Elmi dərəcəli olan ataların uşaqlarında davranış pozuntularının orta qiyməti daha az müşahidə olunmuşdur;

- Ailələrin gəlir səviyyəsi ilə uşaqların intellektual inkişafı arasında mənalı əlaqə vardır.

**Tədqiqatın metodoloji əsasları və metodikası**. Ailədə uşağın psixi inkişafının istiqamətləri olduqca mürəkkəb psixoloji qanunauyğunluqlara tabedir. Bu baxımdan tədqiqatda şəxsiyyətin formalaşması ilə bağlı ümumpsixoloji müddəalara, B.H.Əliyevin və K.Rocersin şəxsiyyət konsepsiyalarına istinad edilmişdir. Tədqiqata 300 nəfər uşaq cəlb olunmuşdur. Tədqiqatda müşahidə və eksperiment metodundan, eləcə də onun nəticələrinin adekvatlığını təmin etmək üçün riyazi-statistik hesablamalardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Ailədə uşağın psixi inkişafı problemi psixoloji baxımdan mürəkkəb proseslərdən biri olduğuna görə, əldə olunmuş nəzəri müddəalar ümumi psixologiyanı, ailə psixologiyasını yeni elmi biliklərlə zənginləşdirir, ümumi psixologiyada yeni elmi istiqamətlərin yaranması üçün elmi zəmin hazırlayır. Eləcə də, ailə nümunələri əsasında eksperimentdən alınmış nəticələr müəyyən ailənin və şəxsiyyətlərarası münasibətlərin tənzim olunmasında psixoloji məsləhətlər vermək baxımından ciddi elmi nəzəri əhəmiyyət kəsb edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatda əldə olunmuş nəticələr təhsil müəssisələrində, ailə münasibətlərinin tənzimində, uşaqların tərbiyəsi prosesində geniş istifadə oluna bilər. Bununla yanaşı əldə olunmuş nəticələrdən elmi-metodiki tövsiyələrin hazırlanmasında, ailə problemlərinin müxtəlif aspektlərinin araşdırılması ilə bağlı elm-tədqiqat müsəssisələrinin işində, həmçinin seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Aparılan tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının seminarlarında və Respublika elmi konfranslarında müzakirə edilmişdir. Eyni zamanda dissertasiya işinin əsas nəticələri müəllifin müvafiq tədqiqatlarında, məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və

istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ÜMUMİ MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilir, fərziyyə formulə edilir, tədqiqatın metodoloji əsasları müəyyənləşdirilir. Həmçinin tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın **«Ailədə uşağın psixi inkişafı məsələlərinin tədqiqi istiqamətləri»** adlanan I fəsli iki yarımfəsildən ibarətdir. I fəslin **«Problemin qoyuluşu»** adlanan I yarımfəslində problemin öyrənilməsinin əsas istiqamətləri qruplaşdırılır, ailənin uşağın psixi inkişafına təsirini səciyyələndirən məsələlər diqqət mərkəzinə gətirilir. Burada inkişaf anlayışı və onunla identik olan anlayışlar təhlil olunur, ayrı-ayrı yanaşmalar bu konteksdən qruplaşdırılır. Bu yarımfəsildə qeyd olunur ki, inkişaf mürəkkəb və çoxcəhətli bir prosesdir. Aparılmış tədqiqatların təhlilindən çıxış edib inkişafı dörd əsas parametrə bölmək olar: fiziki inkişaf, əqli inkişaf; emosional inkişaf və sosial inkişaf. Bu parametrlərdən hər biri xüsusi bir inkişaf tərzini göstərir. Lakin bunlar arasında diqqətəlayiq qarşılıqlı asılılıq vardır. Məsələn, dərk etmə və anlama bacarığı ola bilsin ki, insanın fiziki, emosional ictimai təcrübəsi ilə bağlı olsun. Kifayət qədər emosional-iradi sağlamlığa malik olan insanlar müxtəlif sosial təcrübələrlə üzləşdikdə daha çox ziddiyyətli mövqelərlə rastlaşan insanlardan bu təcrübəni öyrənirlər. Bütün bunlarla yanaşı bu yarımfəsildə uşağın inkişafının istiqamətləri təhlil olunur və uşağın inkişafının normal getməsi üçün zəruri olan yol və vasitələr göstərilir.

Dissertasiyanın **«Uşaqların psixi inkişafında əxlaq normalarının rolu»** adlanan I fəslinin II yarımfəslində uşaqların əxlaqi tərbiyəsi haqqında bir çox fəlsəfi, dini və psixoloji nəzəriyyələr təhlil olunur. Burada göstərilir ki, dini nəzəriyyələrdən biri ilk günah haqqında xristian nəzəriyyəsidir. Bu baxışlara əsasən günaha batmış və sözə baxmayan uşaqlar qüsurlu xüsusiyyətlərlə doğulmuşlar. Bu yarımfəsildə həmçinin uşaqların əxlaqi xüsusiyyətləri və inkişafı haqqında Con Lokk nəzəriyyəsi, uşağın psixi inkişafı haqqında J.Piajenin baxışları, uşağın əxlaqının formalaşdırılmasında R.Kolberqin, A.Banduranın və b. tədqiqatları təhlil olunur və göstərilir ki, uşağın əxlaqi inkişafının

normal getməsini təmin etmək üçün idrak strukturunun yaradılması zəruridir. Burada göstərilir ki, əxlaq nəzəriyyəçilərinin fikrincə «yaxşı» və «pis» haqqında uşağın mühakiməsi nümunələr əsasında öyrənilir. Hətta uşaq əxlaqa zidd olmayan rəftarlar etməyə təşviq olunduqda belə o rəftarı təkrar etməyə daha çox meyl göstərəcəkdir. Həmçinin, şəxslərin əxlaq rəftarındakı hərəkətlər tez-tez özünü göstərərsə onda, uşaq öz rəftarını həmin davranışları təqlid etməyə və uyğunlaşdırmağa yönəldəcəkdir. Xatırlatmaq lazımdır ki, uşağın əxlaqi tərbiyəsi uşaqlara hər hansı bir işin icra edilməsinin qadağan edilməsi deyildir. Əksinə yaxşı olar ki, imkan daxilində uşağa zərər verməyən azadlıqlar onlardan alınmasın.

Dissertasiyanın **«Uşağın psixoloji inkişafına təsir göstərən əsas amillər»** adlanan II fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın **«Uşaqların psixi inkişafında bioloji və sosial amillərin rolu»** adlanan I yarımfəslində uşaqların böyüdülməsi və tərbiyəsində başlıca amillər təhlil olunur. Qeyd olunur ki, tərbiyə prosesi təhsil və ətraf mühit amillərinin təsiri nəticəsində insanın rəftar və davranışında dəyişiklik əmələ gətirir. Odur ki, insan elə təbii potensiala malik olmalıdır ki, təhsil və tərbiyə onun dəyişib təkmilləşməsində təsirli olsun. Əgər insan təlim-tərbiyə, təhsil üçün lazım olan istedad və bacarığa malik olmasa lazımi tərbiyəni qazana bilməz. Çünki, o bunun üçün zəruri istedad və bacarığa malik deyildir. Hərgah uşaq orta intellekt səviyyəsi ilə doğulmuşsa və onun yaşadığı mühit istedad və əqli potensialın inkişafı üçün zəruri imkanlar yaratmazsa o zehni və psixi inkişaf baxımından geri qala bilər. Ümumiyyətlə, təlim-tərbiyə və inkişaf bir-birilə paralel şəkildə həyata keçirilir. Buna görə bir çox psixoloqlar onların arasında bir çox fərqlərin mövcud olduğunu qeyd edirlər.

Dissertasiyanın II fəslinin **«Valideynlərin sosial mövqeyinin uşaqların psixi inkişafına təsiri»** adlanan II yarımfəsli psixi inkişafda valideynin sosial rolunun tədqiqinə həsr olunub. Burada göstərilir ki, ictimai-iqtisadi vəziyyət gəlirlə, savadla, biliklə, ailənin məşğulluq səviyyəsi ilə təyin olunur və bütün bunların hamısı bir-birilə əlaqədardır. Bu yarımfəsildə qeyd olunur ki, özünəməxsus psixoloji və etnoregional cəhətlərlə fərqlənən hər bir ailə mühiti şəraitinə, uşaqları qoruyub-mühafizə etmək üçün qarşılıqlı təsirə, dəyərlərə, qarşılıqlı

münasibətlərinə görə cəmiyyətdə özünəməxsus yer tutur. Bundan əlavə ailənin iqtisadi-ictimai vəziyyətinin dəyişməsi hətta uşaq dünyaya gəlməmişdən qabaq ona təsir göstərir. Bu nöqteyi nəzərdən çıxış edən tədqiqatçıların qənaətincə, müxtəlif tip ailələrdə uşaqların tərbiyəsi qeyri standart əsaslara malikdir. Ümumiyyətlə, bir sıra hallarda sırf psixoloji olmayan amillər ailədə uşağın psixi inkişafına təsir göstərir. Faktlar göstərir ki, aşağı ictimai təbəqədən olan valideynlər uşaqlarına daha çox məhdudiyyətlər yaradırlar. Bu da lazımi effekti vermir. Əlbəttə, uşaqlar özlərini cəmiyyətdə, sosial rollarda, oyunlarda gerçəkləşdirə bilsələr, bu onların şəxsiyyətinin adekvat istiqamətdə yönəlməsinə zəmin yaradır. Valideynlər bu cəhəti nəzərə almalıdırlar.

Dissertasiyanın II fəslinin **«Ailə üzvlərinin uşaqlarla qarşılıqlı əlaqəsinin psixoloji xüsusiyyətləri»** adlanan III yarımfəsli ailədə uşaqların psixi inkişafına valideynlərin təsiri məsələlərinin tədqiqinə həsr olunub. Tədqiqatlar göstərir ki, valideyn yaradıcı uşaqlarla öz rəftarını daha çox uyğunlaşdırır və uşaqlarını olduğu kimi qəbul edir, onların əşya ilə maraqlanmasına və başqa işlərə yönəlməsinə şərait yaradır. Bununla yanaşı bir uşağa fəal şəkildə qulaq asmaq onun problemini həll etmək əvəzinə onu problemini həll etməyə istiqamətləndirmək daha çox vaxt, hövsələ tələb edir. Bu prosesdə uşaq öyrənəcəkdir ki, böyüklərin himayəsinə, onların məsləhətinə üz tutmaqdansa özü haqqında düşünsə daha yaxşı olar. Belə vəziyyət uşağın özünüdərketməsinə ciddi təkan verir.

Dissertasiyanın **«Ailədə uşağın psixi inkişafının istiqamətlərinin eksperimental-psixoloji»** adlanan III fəsli ailədə uşaqların psixi inkişafının istiqamətlərinin tədqiqinə həsr olunub. Dissertasiyanın **«Tədqiqatın təşkili və keçirilməsi»** adlanan III fəslinin I yarımfəslində metodikaların təsviri aparılmış, tədqiqatda iştirak edənlərin yaş xüsusiyyətləri, təhsil səviyyəsi və s. kimi meyarlar əsas götürülmüşdür.

Dissertasiyanın **«Ailədaxili münasibətlərin uşaqların psixi inkişafına təsirinin eksperimental–psixoloji tədqiqi»** adlanan III fəslinin II yarımfəsli eksperimental tədqiqatın nəticələrinin şərhinə həsr olunmuşdur. Burada tədqiqatın fərziyyələri sınaqdan keçirilmiş və sınaqların nəticəsi təhlil olunub şərh edilmişdir. Hesablanma səviyyəsində Pirson asılılıq kofisentindən, birtərəfli variantda təhlili sınağından (ANOVA)

və müstəqil nümunələr t sınağından istifadə olunmuşdur.

Oğlan və qızlar arasında intellektin müqayisələrinin orta qiymətlərini müqayisə etmək üçün müstəqil nümunələrin t sınağı

Cədvəl 3.1

| Intellektin həddi | Cinsi | Sayı | Orta intellekt | Standartdan kənara çıxma | T məlumatı | Azadlıq dərəcəsi | Əhəmiyyətlilik |
|---|---|---|---|---|---|---|---|
| Verbal intellekt | oğlan | 162 | 111/46 | 161/61 | 3/139 | 280 | 0,002 |
| | qız | 120 | 104/85 | 20/19 | | | |
| Əməli intellekt | oğlan | 162 | 102/96 | 161/55 | 1/347 | 277 | 0/179 |
| | qız | 117 | 105/31 | 10/56 | | | |
| Ümumi intellekt | oğlan | 162 | 109/26 | 12/83 | 2/225 | 280 | 0,027 |
| | qız | 120 | 105/8 | 13/02 | | | |

Cədvəl 3.1-in təhlili göstərir ki, oğlanlar və qızların davranış pozuntusu arasında fərq vardır. Bu sınaq qızlarda və oğlanlarda olan davranış pozuntusunun orta qiymətini müqayisə edir. Bu cədvələ əsasən oğlanlarda davranış pozuntusunun orta qiyməti yüksəkdir. Lakin müqayisə dərəcəsində 95% -5%  əhəmiyyətli xəta ehtimal olunur.

Yaşla intellektin asılılığının göstəriciləri

Cədvəl 3.2

| Yaş və intellektdən bəhrələnmə | Pirson asılılıq kofisenti (R) | Sayı | Əhəmiyyətlilik |
|---|---|---|---|
| Verbal intellekt | -,137 | 282 | 0,021 |
| Əməli intellekt | -,120 | 279 | 0,045 |
| Ümumi intellekt | -0,260 | 282 | 0,000 |
| Pirson asılılıq kofisentinin dəyişmə hüdudu -1<r<+1 | | | |

Cədvəl 3.2-dən göründüyü kimi yaşla davranış pozuntusunun arasında müsbət və zəif asılılıq müşahidə olunmuşdur. Bu göstərir ki, yaşın artması ilə davranış pozuntusu ehtimalı yüksəlir. Əlbəttə, müşahidə olunmuş əlaqə əhəmiyyətlidir.

Yaşla davranış pozğunluğu arasında əlaqənin araşdırılması haqqında Pirson əmsalı göstəriciləri

Cədvəl 3.3

| Yaş və intellekt növü | Pirson asılılıq kofisenti (r) | Sayı | Əhəmiyyətlilik dərəcəsi |
|---|---|---|---|
| Verbal intellekt | 0,120 | 249 | 0,099 |
| Pirson asılılıq kofisenti dəyişmə hüdudu -1<r<+1 | | | |

3.3 saylı cədvəl göstərir ki, bütün intellekt miqyaslarının orta qiyməti (söz, əməl və ümumi) müstəqil tərbiyə üsulundan istifadə başqa övlad tərbiyəetmə üsullarından daha yüksəkdir və ən az intellekt kofisenti müti övlad tərbiyəetmə üsulunda müşahidə olunmuşdur.

Övlad tərbiyə etmə üsulları üzrə intellektin orta qiymətinin müqayisəsi üçün birtərəfli variantın təhlil sınağının göstəriciləri

Cədvəl 3.4

| Övlad tərbiyə üsulu və intellekt miqyası | Variant | Kvadrat | Sərbəstlik dərəcəsi | Orta kvadrat | F məlumatı | Əhəmiy-yətlilik dərəcəsi |
|---|---|---|---|---|---|---|
| Verbal intellekt | Qruplararası | 3733,82 | 2 | 1866,91 | | |
| | Qrupdaxili | 92504,39 | 279 | 231,557 | 5,631 | 0,004 |
| | Yekun | 96238,213 | 281 | | | |
| Əməli intellekt | Qruplararası | 2259,720 | 2 | 1129,86 | | |
| | Qrupdaxili | 55162,474 | 276 | 199,864 | 5,653 | 0,004 |
| | Yekun | 57422,194 | 278 | | | |
| Ümumi intellekt | Qruplararası | 1287,35 | 2 | 642,675 | | |
| | Qrupdaxili | 46207,884 | 279 | 165,62 | 3,886 | 0,022 |
| | Yekun | 47495,234 | 281 | | | |

Övlad tərbiyə etmə üsulu ilə uşaqların davranış pozuntusu arasında əlaqə vardır. 3.4 saylı cədvəl göstərir ki, müstəqil tərbiyə üsulu ilə övlad tərbiyəetmə və davranış pozuntusu arasında digər üsullara nisbətən göstərici daha aşağı səviyyədədir. Başqa sözlə, cədvəl göstərir ki, avtoritar üsul ilə böyüdülən uşaqlar arasında davranış pozuntusu daha çox müşahidə olunur.

Ananın təhsil səviyyəsi üzrə orta intellekt qiymətinin göstəriciləri

Cədvəl 3.5

| Ananın təhsil səviyyəsi | İntellektin miqyası | Sayı | Orta intellekt | Standartdan kənara çıxma |
|---|---|---|---|---|
| İbtidai təhsilli | Verbal intellekt | 18 | 107,17 | 8,155 |
| | Əməli intellekt | 18 | 101,33 | 6,126 |
| | Ümumi intellekt | 18 | 104 | 5,126 |
| 8 illik təhsilli | Verbal intellekt | 75 | 104,8 | 17,9 |
| | Əməli intellekt | 75 | 97,08 | 30,98 |
| | Ümumi intellekt | 75 | 103,2 | 13,83 |
| Orta təhsilli | Verbal intellekt | 117 | 109,03 | 19,73 |
| | Əməli intellekt | 114 | 106,39 | 10,47 |
| | Ümumi intellekt | 117 | 109,13 | 12,83 |
| Texnikum təhsilli | Verbal intellekt | 9 | 99 | 30,89 |
| | Əməli intellekt | 9 | 107 | 5,196 |
| | Ümumi intellekt | 9 | 111,67 | 9,73 |
| Ali təhsilli | Verbal intellekt | 45 | 114,47 | 16,861 |
| | Əməli intellekt | 45 | 107,92 | 10,316 |
| | Ümumi intellekt | 45 | 111,53 | 13,47 |
| Ali təhsilli (magistr təhsili) | Verbal intellekt | 6 | 124 | 14,24 |
| | Əməli intellekt | 6 | 118,5 | 6,02 |
| | Ümumi intellekt | 6 | 122,5 | 10,4 |

Analarının təhsil səviyyəsi orta məktəb və texnikum səviyyəsində olan uşaqların verbal intellektinin orta qiyməti daha azdır. Analarının təhsil səviyyəsi ibtidai təhsil səviyyəsində olanla, 8 illik təhsil səviyyəsində olanlardan əməli intellektin orta qiyməti daha az olmuşdur. Orta ümumi intellekt qiyməti isə analarının təhsil səviyyəsi ibtidai təhsillilərə nisbətən daha aşağıdır.

Müşahidə olunan mənalı fərq sınağının keçirilməsi üçün birtərəfli variant təhlil sınağından istifadə olunmuşdur. Bu sınağın nəticəsi 3.6 saylı cədvəldə göstərilir ki, atanın müxtəlif təhsil səviyyələrindən uşaqların intellekt kofisentində müşahidə olunan fərqlər 90% etibarlılıq dərəcəsinə malikdir və əhəmiyyətlilik 1% təşkil edir. Buna görə də atanın təhsil səviyyəsi ilə uşaqların intellekt kofisenti meyarı arasında əlaqənin olması fərziyyəsi təsdiq olunur.

Ataların təhsil səviyyəsi ilə intellekti arasındakı əlaqənin göstəriciləri

Cədvəl 3.6

| Atanın təhsil səviyyəsi | İntellektin miqyası | Sayı | Orta intellekt | Standartdan kənara çıxma |
|---|---|---|---|---|
| İbtidai təhsil | Verbal intellekt | 36 | 114,75 | 13,98 |
| | Əməli intellekt | 36 | 96,5 | 27,10 |
| | Ümumi intellekt | 36 | 110,43 | 9,82 |
| 8 illik təhsilli | Verbal intellekt | 90 | 104,1 | 17,96 |
| | Əməli intellekt | 90 | 99,7 | 10,99 |
| | Ümumi intellekt | 90 | 101,9 | 13,76 |
| Orta təhsilli | Verbal intellekt | 75 | 108,16 | 20,4 |
| | Əməli intellekt | 75 | 107,4 | 10,76 |
| | Ümumi intellekt | 75 | 110,24 | 12,49 |
| Ali təhsilli (magistr təhsilli) | Verbal intellekt | 12 | 116,5 | 12,63 |
| | Əməli intellekt | 12 | 107,25 | 4,92 |
| | Ümumi intellekt | 12 | 112 | 8,38 |
| Ali təhsilli (bakalavr) | Verbal intellekt | 42 | 104,21 | 18/72 |
| | Əməli intellekt | 39 | 107,92 | 9,25 |
| | Ümumi intellekt | 42 | 107,29 | 11,31 |
| Ali təhsilli (magistr) | Verbal intellekt | 12 | 127,25 | 13,74 |
| | Əməli intellekt | 12 | 118,5 | 5,93 |
| | Ümumi intellekt | 12 | 124,75 | 10,21 |
| Doktorluq | Verbal intellekt | 3 | 138 | 0 |
| | Əməli intellekt | 3 | 115 | 0 |
| | Ümumi intellekt | 3 | 122 | 0 |

Uşaqların intellekt qiymətinin orta həddinin atanın təhsil səviyyəsi üzrə müqayisəsi üçün birtərəfli variant təhlil sınağı

Cədvəl 3.7

| İntellektin miqyası və atanın təhsil səviyyəsi | Variant | Kvadrat | Sərbəstlik dərəcəsi | Orta kvadrat | F məlumatı | Əhəmiyyətlilik dərcəsi |
|---|---|---|---|---|---|---|
| Verbal intellekt | Qruplararası | 11522,215 | 6 | 1920,361 | | |
| | Qrupdaxili | 84566,251 | 263 | 269 | 321,587 | 0,00 |
| | Cəmi | 96099,467 | 269 | | | |
| Əməli intellekt | Qruplararası | 8169,04 | 6 | 1361,508 | | |
| | Qrupdaxili | 48947,91 | 260 | 188,261 | | |
| | Cəmi | 57116,966 | 266 | | | |
| Ümumi intellekt | Qruplararası | 8210,010 | 6 | 1368,336 | | |
| | Qrupdaxili | 38975,351 | 263 | 148,195 | 0,233 | 0,00 |
| | Cəmi | 47185,367 | 269 | | | |

Atanın təhsil səviyyəsi ilə uşağın davranış pozuntusu arasındakı əlaqə göstərir ki, ibtidai təhsil səviyyəsinə malik olan ataların uşaqlarının davranış pozuntusunun orta qiyməti başqa uşaqlara nisbətən daha çoxdur. Elmi dərəcəli olan ataların uşaqlarında davranış pozuntusunun orta qiyməti daha az müşahidə olunmuşdur.

Ananın təhsil səviyyəsi üzrə uşaqların davranış pozğunluğunun orta qiymətini müqayisə etmək üçün birtərəfli variant təhlil sınağının göstəriciləri

Cədvəl 3.8

| Ananın təhsil səviyyəsi və uşağın davranış pozuntusu | Variant | Sərbəstlik dərəcəsi | Orta kvadrat | F məlumatı | Əhəmiyyətlilik dərcəsi |
|---|---|---|---|---|---|
| Verbal intellekt | Qruplararası | 279,519 | 5 | 55,904 | |
| Əməli intellekt | Qrupdaxili | 6777,731 | 246 | 27,552 | 0,075 |
| Ümumi intellekt | Ümumi | 7057,25 | 251 | | |

Ananın təhsil səviyyəsi ilə uşağın davranış pozuntusu arasında əlaqə 3.7 saylı cədvələ əsasən anaların təhsil səviyyəsi magistr təhsili olan anaların uşaqlarda davranış pozuntusu daha çox müşahidə olunmuşdur. Anaları orta təhsilli olan uşaqlarda bu rəqəm daha az müşahidə olunur.

Əlbəttə, bu cədvələ əsasən analarının texnikum səviyyəsində təhsili olan uşaqlarda bu rəqəm azalmağa doğru gedir. Ondan sonra isə yenidən artma dinamikası başlayır.

Ailənin gəliri üzrə uşaqların orta intellekt qiymətinin müqayisəsi üçün birtərəfli variantda təhlil sınağının göstəriciləri

Cədvəl 3.9

| İntellekt miqyası və ailənin gəliri | Variant | Kvadrat | Sərbəstlik dərəcəsi | Orta kvadrat | F məlumatı | Əhəmiyyətlilik dərəcəsi |
|---|---|---|---|---|---|---|
| Verbal intellekt | Qruplararası | 7739,7 | 3 | 2579,9 | 7,604 | 0,000 |
| | | 85157,2 | 251 | 339,274 | 7 | 604 |
| | | 92896,9 | 254 | | | |
| Əməli intellekt | Qrupdaxili | 529,3 | 3 | 176,4 | | |
| | | 52901,3 | 248 | 212,3 | 0,827 | 0,480 |
| | | 53430,7 | 251 | | | |
| Ümumi intellekt | Ümumi İntellekt qiyməti | 2168,06 | 3 | 722,687 | 4,313 | 0,005 |
| | | 420055,6 | 251 | 167,552 | | |
| | | 44223,7 | 254 | | | |

Cədvəl 3.9-dan görünür ki, ailənin gəlir səviyyəsi ilə uşaqların davranış pozuntusu arasında əlaqə vardır.

Valideynləri alkoqollu içkilər istifadə etməsi və etməməsi üzrə intellektin orta qiymətinin müqayisəsi üçün müstəqil nümunələr sınağının göstəriciləri

Cədvəl 3.10

| İntellekt miqyası | Valideyn tərəfindən alkoqolun istifadə | Say | Standartdan kənara çıxma | T məlumatı | Sərbəstlik dərəcəsi | Əhəmiyyətlilik dərəcəsi |
|---|---|---|---|---|---|---|
| Verbal intellekt | İstifadə olunması | 6 | 87,5 | 30,125 | -2,992 | 0,003 |
| | İstifadə olunmaması | 255 | 109,5 | 17,79 | | |
| Əməli intellekt | İstifadə olunması | 6 | 101,5 | 0,548 | -0,410 | 0,682 |
| | İstifadə olunmaması | 255 | 104 | 15,05 | | |
| Ümumi intellekt qiyməti | İstifadə olunması | 6 | 94 | 16,42 | -2,365 | 0,009 |
| | İstifadə olunmaması | 255 | 108,4 | 132,19 | | |

Cədvəl 3.10-dan görünür ki, valideynlər tərəfindən alkoqoldan istifadə olunması ilə uşaqların psixoloji inkişaf xüsusiyyətləri arasında əlaqə vardır. Narkotik maddələrdən və alkoqoldan valideynlərin istifadə etməsi ilə uşaqların intellekt kofisenti arasında əlaqə vardır.

Ailənin psixi sağlamlığı və uşağın davranış pozğunluğu qiyməti arasında əlaqəni araşdırmaq üçün Pirsonun asılılıq kofisentindən istifadə olunmuşdur. Bu müsbət asılılıq sınağı bu ikisi arasında dəyişikliyin olduğunu göstərir. Başqa sözlə desək, ailənin psixi sağlamlığının nəticəsi uşağın davranış pozğunluğunun azalmasına gətirib çıxaracaqdır. Müşahidə olunan fərqin etibarlılıq dərəcəsinin 99% olduğunu və məlumat xətasının 1% ehtimal olunduğunu nəzərə alsaq bu faktın əhəmiyyətli olduğunu vurğulaya bilərik. Apardığımız eksperiment aşağıdakı nəticəyə gəlməyə imkan verir:

-Qız uşaqları ilə oğlan uşaqlarının psixoloji inkişaf xüsusiyyətləri arasında fərq mövcuddur. Qız uşaqları ilə oğlan uşaqlarının intellektdən bəhrələnməsi arasında fərq vardır.Bununla yanaşı müəyyən edilmişdir ki, əməli intellektin orta qiyməti qızlarda daha çoxdur. Amma orta verbal intellekt və ümumi intellekt göstəricisi oğlanlarda qızlara nisbətən daha çoxdur. Etibarlılığına görə 95%-lə 5% arasında əhəmiyyətli xəta mövcuddur. Amma əməli intellektə görə oğlanlar və qızlar arasında məlumat cəhətdən əhəmiyyətli fərq müşahidə olunmur.

- Uşaqların yaşı ilə onların psixoloji inkişaf xüsusiyyətləri arasında əlaqə vardır. Bununla belə yaşla və intellektdən bəhrələnmə arasında əlaqə vardır. Faktlar göstərir ki, yaşın artması ilə verbal intellekt qiyməti artır, əməli intellektin və ümumi intellektin isə qiyməti azalır. Ailənin övlad tərbiyə etmə üsulları ilə uşağın psixoloji inkişaf xüsusiyyətləri arasında əlaqə vardır.

-Ailənin övlad tərbiyəetmə üsulları və uşaqların intellekt meyarı arasında əlaqə vardır. Bütün intellekt miqyaslarının orta qiyməti (söz, əməl və ümumi) müstəqil tərbiyə üsulundan istifadə başqa övlad tərbiyə etmə üsullarından daha yüksəkdir və ən az intellekt kofisenti müti övlad tərbiyə etmə üsulunda müşahidə olunmuşdur. Bununla belə övlad tərbiyə etmə üsulu ilə uşaqların davranış pozğunluğu arasında əlaqə vardır. Başqa sözlə, cədvəl göstərir ki, avtoritar üsul ilə böyüdülən uşaqlar arasında davranış pozğunluğu daha çox müşahidə olunur.

Dissertasiyanın **«Ailənin uşağın şəxsiyyət kimi formalaşmasına pozitiv təsirinin yol və vasitələri»** adlanan III fəslinin III yarımfəslində

ailədə uşağın şəxsiyyət kimi inkişafını şərtləndirən yol və vasitələr göstərilmişdir. Burada göstərilir ki, uşaqlar altı yaşında iki yaş yarımda olduğu kimi itaətsiz olurlar. Lakin bu dəyişiklik altı yaş yarımda təqribən sona çatır. Bu yaşda uşaqlar çox emosional olurlar. Uşaqlarda emosional qütblülük özünü tez-tez təzahür etdirir. Valideynlər, tərbiyəçilər evdə, məktəbdə arzu olunan və tələb olunan psixoloji iqlimi yaratmaq səyləri göstərməlidirlər ki, uşaqların kifayət dərəcədə dəyərli bacarıqlarını, qabiliyyətlərini, istedadlarını inkişaf etdirə bilsinlər. Apardığımız tədqiqat aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Psixoloji ədəbiyyatın təhlili göstərir ki, psixoloji inkişaf prosesi zamanı lazımi nəvaziş və qayğı görməyən və təhqir olunan uşaqlar və yeniyetmələr münasib şərait tapmadıqda özlərini nəzərə çarpdırmaq məqsədi ilə mənfi davranış tərzləri göstərirlər;
- Ailədə uşağın psixi inkişafına bir sıra amillərlə yanaşı ailə tərbiyəsinin üsulları, ailənin etnik-milli şəraiti və regional xarakteri də ciddi təsirə malikdir. Faktlar göstərir ki, ailənin milli-etnik xüsusiyyətləri, xarakter və davranış qaydaları, demokratik və bəşəri ideyalara malik olması uşağın formalaşmasında mühüm rola malikdir;
- Aparılmış tədqiqatlar göstərir ki, uşağın ailədə psixi inkişafını təmin edən amillər müxtəlifdir və hər bir tədqiqatçının bu məsələ ilə bağlı baxışları fərqlidir. Lakin bununla belə bütün tədqiqatçıları birləşdirən ümumi cəhət ondan ibarətdir ki, uşağın psixi inkişafında ya sosial amillər, ya da bioloji amillər əsas götürülür. Ancaq bütün istiqamətlərdə ailənin uşağın psixi inkişafında rolu olduqca yüksək qiymətləndirilir, ailəni uşağın tərbiyə məkanı və onun sosiallaşmasının başlıca amili hesab edirlər;
- Təhlillər göstərir ki, kifayət qədər emosional-iradi sağlamlığa malik olan ailələr müxtəlif sosial təcrübələrlə üzləşdikdə daha çox ziddiyyətli mövqelərlə rastlaşan ailələrdən bu təcrübəni öyrənirlər. Sosial inkişaf bioloji həyatı anladıqdan, dərk etdikdən sonra müəyyən həyəcanlı reaksiyalarla üzləşməklə ortaya çıxır və nəticədə hər bir təcrübə sonrakı təcrübənin inikası olur və biri digərini təkrarlayır. Uşağın psixi inkişafında bu faktlar təkzib edilməz kimi təqdim olunur.
- Uşaqların psixi inkişafı ailədaxili münasibətlərin harmoniyasından, eləcə də onlara göstərilən qayğı və diqqətin intensivlik səviyyəsindən asılı olub, uşağın yaşadığı sosial-iqtisadi şəraitin dinamikasından asılıdır. Bütün bunlarla yanaşı, uşağın öz üzərinə götürdüyü rollar da

psixi inkişafda mühüm əhəmiyyətə malikdir. Çünki, bu rollar şəxsiyyətin sosiallaşmasında və özünü dərk etməsində çox mühüm təsirə malikdir. Valideynlər və tərbiyəçilər bu faktı nəzərə almalıdırlar.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **məqalə və tezislərdə** öz əksini tapmışdır:


1. Ailə münasibətlərinin psixoloji problemləri və onların uşaqların tərbiyəsinə təsiri // Psixologiya jurnalı, Bakı, 2009, №1, s.158-164
2. Uşağın psixoloji inkişafı // Psixologiya jurnalı, Bakı, 2009, №2, s.57-64
3. Ailədə valideyn-uşaq münasibətlərinin psixoloji xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2010, №1, s.34-40
4. 6 yaşadan 8 yaşadək olan uşaqların psixoloji xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2010, №2, s.26-32
5. Familes on psychological development // Kafkazovdenie, Moskva,2010,№ 16, s.56-58
6. Роль занчение семьи в психическом развитии ребенка // XXI век: итоги прошлого и проблемы настоящего, Москва, 2010, №13, с.217-220
7. Психическое развитие ребенка в условиях современного качества жизни / Многополярный мир: предпосылки, проблемы и персрективы становления. Пенза – Баку: 2011, с. 69-72
8. Психологические особенности семейного воспитания / Материалы международный научно-практической конференции. Пенза – Витебск – Москва: 2012, с. 18-21
9. К вопросу о влиянии психологической среды в семье на развитие моральных качеств детей // Поиск, Казахстан, 2012, №1(1), с. 298-302

**Настаран Мирмухаммад Хассанли**

## Психическое развитие ребенка в семье

### Резюме

Диссертационная работа посвящена одной из актуальных проблем психологической науки – изучению особенностей психологического развития ребенка в семье. Ускорение социально-экономического развития в современном мире, происходящие в нем изменения, формирование новой системы ценностей меняют и направления психического развития ребенка в семье. Традиционные методы воспитания не дают возможности выявить психологические особенности развития психики ребенка, а также создать необходимые пути и средства в этом направлении. С этой точки зрения изучение психологических особенностей развития психики ребенка является необходимым и актуальным.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении обосновывается актуальность темы, определяются методологические основы, объект и предмет, а также теоретическая и практическая значимость исследования.

В первой главе диссертации группируются основные направления изучения проблемы, сосредотачивается внимание на вопросах, характеризующих влияние семьи на психическое развитие ребенка. Здесь анализируется понятие «развитие» и идентичные с ним понятия, в данном контексте группируются отдельные подходы. Отмечается, что развитие является сложным и многогранным процессом. Исходя из проведенного анализа, развитие можно разделить на четыре основных параметра: физическое, умственное, эмоциональное и социальное.

Во второй части диссертации исследуются основные факторы, влияющие на психологическое развитие детей, а также основные вопросы, играющие важную роль в процессе их воспитания. Здесь отмечается, что процесс воспитания под влиянием факторов образования и окружающей среды приводит к изменениям в поведении и взаимоотношениях человека. Поэтому человек должен обладать таким естественным потенциалом, чтобы образование и воспитание могли повлиять на его совершенствование. Если человек не обладает необходимым талантом и умениями для учебно-воспитательной и образовательной деятельности, то он не сможет достичь нужного воспитания.

Третья глава диссертации посвящена изучению направлений психического развития детей в семье. Здесь основное внимание уделяется возрастным особенностям, уровню образования и другим критериям, определяется связь как между методами воспитания и интеллектом ребенка, так и между коэффициентом интеллекта ребенка и уровнем образования родителей.

В заключение диссертации обобщаются основные выводы исследования.

**Nastaran Mirmohammad Hassanli**

## Mental Development of the Child in a Family

## SUMMARY

Dissertational work is devoted one of actual problems of a psychological science – to studying of features of psychological development of the child in a family. Acceleration of social and economic development in the modern world, changes occurring in it, formation of new system of values change also directions of mental development of the child in a family. Traditional methods of education do not give possibility to reveal psychological features of development of mentality of the child, and also to create necessary ways and means to this direction. From this point of view studying of psychological features of development of mentality of the child is necessary and actual.

Dissertational work consists of the introduction, three heads, the conclusion and the list of the used literature. In introduction the theme urgency is proved, methodological bases, object and a subject, and also the theoretical and practical importance of research is defined.

In dissertation chapter 1 the basic directions of studying of a problem are grouped, the attention to the questions characterizing influence of a family on mental development of the child concentrates. Here the concept "development" and identical concepts with it is analyzed, in the given context separate approaches are grouped. It is noticed, that development is difficult and many-sided process. Preceding from the spent analysis it is possible to divide development into four cores of parameter: physical, intellectual, emotional and social.

In the second part of the dissertation the major factors influencing psychological development of children, and also the basic questions playing the important role in the course of their education are investigated. Here it is noticed, that process of education under the influence of formation and environment factors leads to changes in behavior and mutual relations of the person. Therefore the person should possess such natural potential that formation and education could affect its perfection. If the person does not possess necessary talent and abilities for teaching and educational and educational activity it cannot reach the necessary education.

The third chapter of the dissertation is devoted studying of directions of mental development of children in a family. Here the basic attention is given to age features, an educational level and other criteria, communication as between methods of education and intelligence of the child, and between factor of intelligence of the child and an educational level of parents is defined.

In the conclusion part of the dissertation work are generalized the basic thesis's of research.